Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Ömrü nağıla bənzəyən şair

**Hafiz Baxışın 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2022**

**Tərtibçi:** **Aynurə Əliyeva**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
**Əməkdar Mədəniyyət işçisi**

**Ömrü nağıla bənzəyən şair -** Hafiz Baxışın 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.:Aynurə Əliyeva; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2022.- 13s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

# Giriş

Mənim vətənim! Sən, öz saysız-hesabsız meşələrin, çayların və dağlarınla necə də gözəl və zənginsən! Bununla bərabər, sən həmçinin, dahi incəsənət xadimləri ilə və sənin bu gözəlliklərini qələmə alaraq vəsf edən şairlərinlə də zənginsən. Bizim Azərbaycan şairlərini başqa millətlər də tanıyır. Bunlar - Nizami Gəncəvi, Məhəmməd Füzuli, Vidadi, Vaqif və digər dühalardır. Onlar öz vətənlərinin həqiqi vətəndaşları olmuş və xalq qarşısında öz borclarını vicdanla yerinə yetirmişlər. Onlar Azərbaycanın çoxəsrli mədəniyyətinin ən parlaq nümayəndəsidir. Elə ədiblərimiz var ki, onların əsərləri dünya ədəbiyyatının qızıl fonduna aiddir. Nizami fəlsəfəsinə görə, insanın ali məqsədi - öz əməlləri ilə dünyanı zinətləndirməkdir. "Müdrikliklə faydalı ol, yaxşılıq etməklə dünyanı gözəlləşdirən ol!" M.Şeyxzadə belə yazırdı: Humanizm, vətənpərvərlik, ədalət və xeyirxahlığı tərənnüm edən Azərbaycan ədəbiyyatı zəngin, dərin və genişdir. Mən fəxr edirəm ki, bizim məmləkətimizdə dahi şair və yazıçılar yaşamış və yaşamaqdadır və bütün dünya onların yaratdıqları əsərləri oxuyur və zövq alır. Azərbaycanın həm ölkəmizdə, həm də dünyada ürəklərə yol tapan şairlərindən biri də ədəbiyyatımızda özünə məxsus yeri olan şair Hafiz Baxışdır. Bu il Hafiz Baxışın 90 illik yubileyi olur. Bu münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə *"Vətən şairi–Hafiz Baxış"* adlanır və şairin yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır. II hissədə isə yubiley münasibətilə ilə kitabxanalarda keçiriləcək tədbirlər öz əksini tapır. Vəsaitin sonunda məlumat biblioqrafiya şöbəsi tərəfindən hazırlanmış ədəbiyyat siyahısı da verilmişdir ki, Hafiz Baxışın yaradıcılığına müraciət edənlər bu biblioqrafiyadan yararlana bilərlər.

## *Həyat və yaradıcılığı*

Hafiz Baxış 1932-ci il oktyabrın 15-də Zəngəzur mahalı Qafan bölgəsinin Yuxarı Girətağ kəndində müəllim ailəsində anadan olmuşdur. Orta məktəbi 1950-ci ildə Qafan bölgəsinin Şəhərcik kəndində bitirmişdir.

1950-1952-ci illərdə Qovşud kəndində ibtidai sinif müəllimi işləmiş, 1952-1956-cı illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun teatr və kino aktyorluğu fakültəsində təhsil almışdır. Tələbə ikən 1954-cü ildə Azərbaycan diviziyasında bədii özfəaliyyət dərnəyinin rəhbəri olmuşdur. 1956-1961-ci illərdə Sumqayıt şəhərində tərbiyəçi, pionerlər evinin və mədəniyyət sarayının direktoru vəzifəsində çalışmışdır.

1961-ci ildə Azərbaycan Dövlət Radio və Televiziya verilişləri Komitəsində rejissor köməkçisi, rejissor, yüksək dərəcəli rejissor vəzifələrində fəaliyyət göstərmişdir. İlk şeirləri "Sosialist Sumqayıtı" qəzetində dərc olunmuşdur, "Samur – Dəvəçi kanalı" adlı ilk şeiri də həmin qəzetin 1957-ci il 9 fevral tarixli sayında , "Zirvə" adlı ilk poeması isə "Azərbaycan" jurnalının 1968-ci il 2-ci sayında çap olunmuşdur. Bundan sonra o altı poema qələmə alsa da, lirik şair kimi tanınmışdır. İyirmidən çox şeirinə musiqi bəstələnmişdir. 1989-cu il sentyabrın 7-də vəfat etmişdir.

Hafiz Baxışın anadan olmasının 90 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Bu şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq və eyni zamanda oxucularda mütailə vərdişi aşılamaq məqsədi daşıyır. Hafiz Baxışın 90 illik yubileyi ilə əlaqədar kitabxanada kitab sərgisi keçirilməsi məqsədəuyğundur. Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər.
"Eşqimi sönməyə qoymaram", "Bir adım qalacaq daşımın üstə", "Onun Vətən eşqi sönməyəcək, "Sən nəğmələrdə həmişə yaşayacaqsan!", "Ömrü nağıla bənzəyən şair", "Hərdən nələr gəlir fikrimə, nələr", "Hafiz Baxış yaradıcılığı", ""Yaxşılı, yamanlı ömür" sahibi Hafiz Baxış", "Bizim dost itirən vaxtımız deyil", "Misraları, kadrları, insanlığı, dost-yoldaşlığı, naxış-naxış..." və s.
Hafiz Baxışın yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri **"Azərbaycan oğluyam"** adlı *şeir müsabiqəsi* ola bilər. Kitabxanaçı öncə şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə başlayır. Hafiz Baxışın həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından qısa məlumat verir. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır.
*Birinci işrirakçı "Bizim dost itirən vaxtımız deyil" adlı şeirini intonasiya ilə deyir.*

Gəlin itirməyək dostları, qardaş!
Onsuz da çox deyil yaxşı dost, sirdaş.
Dostluq qalasından bir kərpic, bir daş
Uçurub aparır hər saat, hər il-
Bizim dost itirən vaxtımız deyil!

Bir könül həmdəmi tapana qədər
Can evi illərlə olur dərbədər.
Var-dövlət dünyada gəlib də gedər,
Hər şeyə göz yumub dosta et meyil-
Bizim dost itirən vaxtımız deyil!

Tutmursa xasiyyət, tutmursa ürək,
Havayı duz dadıb,kəsməyək çörək.
Dostun hər cövrünə qatlaşıb gərək,
Olaq yaxşısına, pisinə qayil-
Bizim dost itirən vaxtımız deyil!

Onsuz da qısadır, dönükdür ömür,
Tale biz deyəni həmişə demir.
Ey dost, biz nə daşıq, nə də ki, dəmir,
Əsl dost yolunda ikiqat əyil-
Bizim dost itirən vaxtımız deyil!

Dünyanı tutub ha qalan deyilik,
Əbədi məskən də salan deyilik.
Ömrü bir də satın alan deyilik,
Dostluqda hər anın qiymətini bil-
Bizim dost itirən vaxtımız deyil!

Canını istəsə, dosta qurban de,
Dərdinə çarə qıl, ona dərman de.

Dost sənə "çor" desə, sən ona "can" de,
Düşməni dost edir xoş söz, şirin dil-
Bizim dost itirən vaxtımız deyil!

Hafiz,dar ayaqda dosta ol dayaq,
Dostluğu müqəddəs bir nemət sayaq.
Fitnə-fəsadlara məhəl qoymayaq,
Çəkək nankorların gözlərinə mil-
Bizim dost itirən vaxtımız deyil!

*İkinci işrirakçı "El yolunda" adlı şeirini intonasiya ilə deyir.*

Vətən oğlu, bu dünyada məğrur yaşa,
Hünər göstər, qeyrətlə vur ömrü başa.
Harda olsan çətin yol seç, mərdlik ara.
Əməlinlə sevinc payla insanlara.

Koroğlu tək aman vermə namərdə heç,
Babək kimi vətən üçün canından keç,
Mehdi kimi sən alovlu, odlu yol seç,
Gündən-günə qoy ucalsın şan-şöhrətin
el yolunda
Günəş kimi sönməz olsun hərarətin
el yolunda....

Sev elini, sev vətəni, sev cahanı,
İnsanları yaxşı öyrən, yaxşı tanı.
Bircə dəfə bəxş olunub ömür bizə,
Qoy igidlik bəzək olsun ömrümüzə.

*Üçüncü işrirakçı "ey Vətən" adlı şeirini intonasiya ilə deyir.*

Ömrümdə bircə gün sənsiz oldumsa,
Açılıb gülmədi üzüm, ey Vətən.
Harda qonaq olub, harda qaldımsa,
Sən oldun söhbətim, sözüm ey Vətən.

Ey odlar diyarı, müqəddəs ana,
Hazıram yolunda hər imtahana.
Sənsiz baxaramsa əgər cahana
Qoy onda kor olsun gözüm, ey Vətən.

Münsiflər heyəti şeir müsabiqəsi qaliblərini müəyyən edir, onlara diplom təqdim edilir. Həmçinin qaliblərə hədiyyə və şairin müxtəlif adda şeir kitabları verilir.

Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi kitab müzakirəsi də keçirilə bilər. Oxucuların istəyini nəzərə alan kitabxanaçı oxucularla birgə Hafiz Baxışın *"Azərbaycan oğluyam"* adlı **kitabın müzakirəsi**ni təşkil edir. *Kitabxanaçı:* Sənət təşnəsi ilə yanıb-yaxılmaq, sözün mahir ustası olmaq, xeyriyyəçilik əməlləri ilə xalqına fayda vermək, əsərləri ilə oxucuların qəlbində özünə əbədi heykəl ucaltmaq səadəti yalnız o sənətkara qismət olur ki, yaşadığı torpağına, vətəninə, millətinin müstəqilliyi uğrunda mübarizəyə qırılmaz tellərlə bağlı olsun. Hafiz Baxış məhz belə həmişəyaşar sənətkar olmuşdur.

Hafiz Baxış el arasında sevilən, toy-bayramlarımızda, şənlik məclislərimizdə səslənən populyar nəğmələrin müəllifi kimi şeir, sənət həvəskarlarına yaxşı tanışdır.

Diqqətinizə təqdim etdiyimiz bu kitabında şair sizinlə görüşə yeni nəğmələri, şeirləri və xalqımızın Böyük vətən müharibəsi illərindəki dəyanətindən söz açan poeması ilə gəlmidir.

Hafiz Baxışın bu poetik toplusuna sevgi duyğuları ilə süslənmiş, yurdsevərlik, elsevərlik düşüncələri ilə bəstələnmiş şeirlər, nəğmələr və poemalar daxil edilmişdir.

Bürünüb dumanın sərinliyinə,
Qərq olar sükutun dərinliyinə.
Axşamdan söykənib çiyin-çiyinə
Yorğun gözlərini yumur qayalar.

Bahar babaların xəyalı kimi,
Susar əsrlərin sualı kimi.
Həmişə fikirli, röyalı kimi
Düşünər yuxulu, xumar qayalar...

Hafiz Baxışın 90 illik yubileyi ilə bağlı keçirilən maraqlı tədbirlərdən biri də poeziya gecəsidir. *"Bir adım qalacaq daşımın üstə"* adlı gecənin təşkili məqsədəuyğundur. Həmçinin gecəyə Azərbaycanın görkəmli sənət-söz adamlarını, oxucuları, müəllimləri, poeziya həvəskarlarını dəvət etmək olar. Tədbirdə şairin sözlərinə bəstələnmiş mahnılar ifa olunur. Bu gözəl ovqatdan sonra aparıcılar səhnəyə yaxınlaşır.

**I aparıcı:**

İnsanam, xoş sözlə dindirdin məni,
Səhv yoldan xoşluqla göndərdin məni,
Xoşluqla ölümə göndərdin məni,
Bir kəlmə danışıb dinən deyiləm...

Salam, dəyərli qonaqlar, Hafiz Baxış sevərlər, şeirə-sözə vurğun oxucular, bu gözəl şeirli, nəğməli, tədbirə xoş gəlmisiniz. Bu gün hamımız Hafizin 90 illik yubileyi münasibətilə onun nəğməli sədasına yığışmışıq. Onun keçdiyi yarpaq-yarpaq şeir dolu ömür yoluna işıq salmaq üçün şairin bu söz dolu, misra dolu gecəsinə toplanmışıq. O,

həyatın bütün səslərinə, bütün çağırışlarına cavab verən əsl şairdir. O, ahəngini Azərbaycanın dahi şairlərinin ahəngindən götürmüş bir şairdir.
**II aparıcı:** Hafiz Baxışın vətənimizə sevgisi, vətənə, millətə olan məhəbbəti onun bütün misralarından, şeirlərindən, ümümiyyətlə hər kəlməsindən süzülüb ağ vərəqlərə tökülür. Onun hər bəndi, hər kəlməsi vətən qoxuyur. Hafiz yaradıcılığı başdan-ayağa vətənə həsr olunur desək yanılmarıq. Hafiz Baxışın yaradıcılığında vətənpərvərlik mövzusu hər zaman öz aktuallığını qorumuşdur.

El məni yaşadır, elin oğluyam,
Fitnə-fəsadlara çətin ki, uyam.
Gərək el dərdini hiss edəm, duyam,
Duyğusuz, ürəksiz yaşayammaram...

**I aparıcı:** O elə özünü bənzətdiyi o xalq qəhrəmanlarının doğulduğu, at oynadıb, ad çıxardıqları bölgədə göz açmışdı bu dünyaya 1932-ci il oktyabrın 15-də Zəngəzur mahalının Yuxarı Gilətağ kəndində. Taleyinə müxtəlif ünvanlar, peşələr, vəzifələr, xüsusən də şairlik və milli vətəndaşlıq görəvləri yazılmış bu insan orta məktəbi həmin bölgənin Şəhərcik kəndində bitirmişdi; hansı ki, öz istedadı, fəallığı, ilə ad çıxardığı o kəndin adı onun sonrakı "televiziya erası"nda, iş yoldaşları ilə uğundurucu zarafatlarında da az "rol" oynamamışdı.
**II aparıcı:** Başdan-başa xoş ovqat, duzlu-məzəli söhbətlər mücəssəməsi idi Hafiz Baxış. Göründüyü yerləri görkəmə salırdı, tutqun qaş-qabaqlara bir xoş meh idi, hər ümidsiz könül qıfılına işıqsaçar açar idi rəhmətlik. On səkkiz yaşından iyirmisinədək Qovşud kəndində ibtidai sinif müəllimi işləyib. Azərbaycan Dövlət Teatr İnstitutunun tələbəsiykən (1954)

hərbi hissədə bədii özfəaliyyət dərnəyinin rəhbəri olub. 1956-1961-ci illərdə Sumqayıtda pionerlər evinin və mədəniyyət sarayının direktoru, 1961-ci ildən AzTV-də rejissor köməkçisi, rejissor, yüksək dərəcəli rejissor. İlk şeirləri “Sosialist Sumqayıtı” qəzetində, “Zirvə” adlı ilk poeması “Azərbaycan” jurnalında (1968) çap olunub. Bundan sonra o, altı poema qələmə alsa da lirik şair kimi tanınıb. İyirmidən çox şeirinə musiqi bəstələnib. Mahnıları dinləyicilərinin dilindən-könlündən düşməyən bu şair “Azərbaycan oğluyam”, “Sona bülbüllər”, “Eşqimi sönməyə qoymaram”, “Dağlar üçün darıxmışam”, “Bu torpağa bağlıyam”, “Ömür bir yarpaq imiş”, “Ana layla deyir” kimi oxucuların əlindən düşməyən kitablarını yadigar qoyub bugünümüzə. Həmin kitablarda Azərbaycanın təbii təbiəti şair heyrəti, şair təşbehlərilə bir az da cilvələnib, axar-baxarlanır. O şeirlərdə gah taraz, gah nataraz sosial münasibətlər şirin, zərif qafiyələrlə “bu beşgünlük dünya”da ovxarlanıb axarlanır. O misralarda düşmənə nifrət, Vətənə, dosta məhəbbət aşılanır. “Bir könül həmdəmi tapana qədər, Can evi illərlə olur dərbədər” deyən Hafiz Baxış “Dost sənə çor desə, sən ona can de, Düşməni dost edir xoş söz, şirin dil - Bizim dost itirən vaxtımız deyil!” kimi sadədən sadə bəndlərilə halal Allah bəndələrini dostluğa çağırır:

Gəlin itirməyək dostları, qardaş,
Onsuz da çox deyil yaxşı dost, sirdaş.
Dostluq qalasından bir kərpic, bir daş
Uçurub aparır hər saat, hər il
Bizim dost itirən vaxtımız deyil!

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin hazırladığı ədəbiyyat siyahısı

Kitabları

Sona bülbüllər : şeirlər və poema. - Bakı : Gənclik, 1983. - 88 s.

Azərbaycan oğluyam : şeirlər, nəğmələr və poema. - Bakı : Gənclik, 1980. - 62, [1] s.

Haqqında dövrü mətbuatda

Abbaslı T. Hafiz Baxış : misraları, kadrları, insanlığı, dost-yoldaşlığı, naxış-naxış // Mədəniyyət. - 2014. - 15 oktyabr. - № 78. - S. 13.

Günel. Şair Hafiz Baxışın 80 illik yubileyi qeyd olunub / 525-ci qəzet. – 2012. – 23 oktyabr. – S. 7.

Quliyev R. Onun vətən eşqi sönməyəcək // Vətən səsi. – 1990. – 8 avqust. – S. 7.

Mehdixanlı T. Dünyanı tutub qalan deyilik... : Hafiz Baxış // Azərbaycan. - 2007. - 19 oktyabr. - S. 8.

Mütəllibov T. Bir adım qalacaq daşımın üstə: poeziya // Ədəbiyyat və incəsənət. – 1990. – 2 fevral. - № 3. – S. 6.

Nağıyev E. Nəğməkar şair : Hafiz Baxış - 80. // Mədəni həyat. - 2012. - № 6. - S. 24.

# Ömrü nağıla bənzəyən şair

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**